*UOT 376.1*

# MÜƏLLİM KADRLARININ HAZIRLANMASI TƏHSİL İSLAHATLARININ STRATEJİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Elnurə Sədulla qızı Ağazadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0004-2001-7974
**E-mail:** elnureagazade00@gmail.com

***Açar sözlər:*** *müəllim hazırlığı, pedaqoji kadrlar, təhsil islahatları, əlavə təhsil, peşəkar inkişaf, müasir müəllim modeli, təhsil keyfiyyəti.*

***Ключевые слова:*** *подготовка учителей, педагогические кадры, реформы образования, дополнительное образование, профессиональное развитие, современная модель учителя, качество образования.*

***Key words:*** *teacher training, pedagogical staff, educational reforms, continuing education, professional development, modern teacher model, quality of education.*

Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi keyfiyyətli insan kapitalının formalaşdırılmasıdır. Bu məqsədə nail olmaq üçün strateji istiqamətlərdən biri də pedaqoji kadr hazırlığıdır. Müəllimlərin peşəkarlıq səviyyəsi birbaşa olaraq ümumtəhsil müəssisələrinin uğurunu və cəmiyyətin inkişafını şərtləndirir. Beləliklə, müəllim hazırlığı və onların davamlı inkişafı dövlətin və cəmiyyətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Müəllim fəaliyyətinin əsas istiqamətləri:

1.Tədris fəaliyyəti: Müəllim təlim prosesinin mərkəzi fiquru olaraq, təhsil standartlarına uyğun tədris proqramlarını həyata keçirməklə şagirdlərin bilik və bacarıqlarını formalaşdırır. Yeni pedaqoji texnologiyalar və aktiv təlim üsullarından istifadə bu fəaliyyətin effektivliyini artırır.

2.Sinifdənxaric və məktəbdənkənar fəaliyyət: Müəllim şagirdlərin əqli, əxlaqi, estetik və fiziki inkişafını təmin edən müxtəlif fəaliyyətləri təşəbbüs etməli və təşkil etməlidir. Bu fəaliyyətlər psixoloji mühiti yaxşılaşdırır, şagirdlər arasında əməkdaşlığı gücləndirir və onların peşə yönümünə töhfə verir.

3.Valideynlərlə iş: Valideyn-müəllim əməkdaşlığı şagirdlərin nizam-intizamı, davamiyyəti və ümumi inkişafı baxımından mühüm rol oynayır. Müasir məktəblərdə valideynlərlə əlaqələr həm üzbəüz, həm də elektron formada aparılır.

4.Təhsil müəssisəsinin aidiyyəti təşkilatlarla əlaqəsi: Müəllim cəmiyyətin müxtəlif strukturları ilə əməkdaşlıq etməklə məktəbin sosial mühitini formalaşdırır, hüquqi və sosial məsələlərin həllinə dəstək olur.

5.Müəllimin ixtisas və peşəkarlıq səviyyəsinin yüksəldilməsi: İxtisasartırma və əlavə təhsil müəllimlərin qloballaşan dünyanın çağırışlarına cavab verə bilməsi üçün zəruridir. Yeni biliklər, texnologiyalar və pedaqoji yanaşmalarla tanışlıq müəllimin professional inkişafını təmin edir. Vətən hər bir kəsin gözünü açdığı evdən başlayır. Daha sonra yaşayıb inkişaf etdikcə, həyatı anladıqca vətən kəlməsi daha dolğun mənalar kəsb edir. Hər bir vətəndaşın göz açdığı

doğma kəndi, vətəni əvəzolunmaz və bənzərsizdir.

Əlavə təhsil sistemi müəllimlərin yenidən hazırlanması və ixtisasartırması üçün mühüm vasitədir. Bu sahədə aparılan islahatlar, Təhsil Nazirliyinin təşəbbüsləri və müasir mexanizmlər, xüsusilə də İKT imkanlarından istifadə etməklə, təhsilin keyfiyyətinə mühüm töhfə verir. Beləliklə, müəllimlərin metodik və elmi-nəzəri bilik səviyyəsi davamlı olaraq artır. Müasir müəllim artıq "bilik ötürücüsü" deyil, öyrənməni yönləndirən bir bələdçidir. O, tədqiqatçı və yaradıcı düşüncəli şagirdlər yetişdirməyə yönəlmiş fasilitator rolunu oynayır. UNESCO tərəfindən XXI əsrin təhsil əsri elan edilməsi bu sahəyə verilən qlobal əhəmiyyəti bir daha təsdiqləyir. Müasir müəllim milli dəyərləri yaşadan, dünya mədəniyyətini mənimsəyən və təhsilin bütün iştirakçıları ilə əməkdaşlıq yaradan şəxsiyyət olmalıdır. Azərbaycan Respublikasında müəllim hazırlığı dövlət səviyyəsində strateji yanaşma ilə tənzimlənir. Nazirlər Kabinetinin 102 saylı qərarı (25 iyun 2007) pedaqoji təhsilin konsepsiya və strategiyasını müəyyən edir. Bu strategiyalar Bolonya Bəyanaməsi və Təhsil Qanunu ilə uyğunlaşdırılıb. Bu kontekstdə "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində beş prioritet istiqamət müəyyən edilmişdir:

1. Təhsilin məzmununun yenilənməsi – təhsil proqramlarının inkişaf etdirilməsi.
2. Səriştəli müəllim kadrlarının hazırlanması.
3. Şəffaf və səmərəli idarəetmə mexanizminin yaradılması.
4. Müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən infrastrukturun yaradılması (İKT-nın tətbiqi).
5. Maliyyələşdirmə modelinin qurulması.

Son illərdə cəmiyyətimizdə təhsildə gedən islahatlara, yeniliklərə böyük maraq yaranmışdır. Artıq yeni təlim texnologiyalarından istifadə etmək, şagirdlərin təhsilin subyektinə çevrilməsi real prosesə çevrilmişdir. Fəal, interaktiv təlim metodları nəticəsində müəllim-şagird əməkdaşlığının yaradılması ilə tədris prosesində yeni münasibətlər formalaşmışdır. Bütün bunların nəticəsində isə müəllimlərin ümumi pedaqoji-psixoloji bilik, bacarıq və müasir düşüncə tərzi inkişaf etməlidir. Müəllim ixtisaslar üzrə bilik, bacarıq və müasir təlim strategiyaları ilə təmin olunmalıdır. Müəllimin ümumi mədəni səviyyəsi inkişaf etdirilməlidir. Ümumiyyətlə, ixtisasartırma təhslində məzmun əsas amildir. Bu məzmunu təmin etmək üçün isə ixtisasartırma təhsilinin yeni mexanizmini bilmək vacibdir. Bunlar isə qloballaşan dünyada-kı yeniliklər, elmi-texniki tərəqqidəki nailiyyətlər, təhsil prosesində gedən yeniliklər haqqında müəllim kadrlarının məlumatlandırılmasını təmin edə bilər.

**Problemin aktuallığı.** XXI əsr müəllimi yalnız bilik ötürən deyil, həm də yaradıcı düşüncəni təşviq edən, şagirdləri istiqamətləndirən və cəmiyyətin mənəvi dəyərlərini formalaşdıran şəxsiyyət kimi çıxış edir. Müasir təhsil sistemi müəllimdən innovativ metodlardan istifadə etməyi, tənqidi düşüncə və sosial bacarıqları inkişaf etdirməyi tələb edir. Azərbaycanda təhsilin modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar bu sahədə yüksək səriştəli pedaqoqlara ehtiyacı artırır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqat müəllim hazırlığının yalnız ənənəvi aspektlərini deyil, həm də müasir çağırışlara cavab verən yeni rollarını və funksiyalarını nəzərdən keçirir. Müəllimin "öyrədən" rolundan "fasilitator" və "yaradıcılıqyönlü lider" roluna keçidi kontekstində aparılan elmi yanaşmalar mövzunun aktuallığını və yeniliyini artırır. Eyni zamanda, əlavə təhsil və fasiləsiz inkişaf mexanizmlərinin tətbiqi ilə pedaqoji kadrların peşəkar inkişafına dair yeni

modellər təklif olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Müəllim kadrlarının hazırlanmasının təhsil islahatlarının strateji istiqamətlərinə daxil olmasında özünü göstərir. Bu yanaşma həm də şagirdlərdə tənqidi və yaradıcı düşüncənin, əxlaqi dəyərlərin formalaşmasına imkan yaradır. Təcrübədə bu strategiya məktəb, ali məktəb və peşə təhsili müəssisələrində müəllimlərin peşəkar inkişafı və təlim keyfiyyətinin yüksəldilməsi üçün tətbiq olunur. Məqalədən ali məktəb pedaqoqları, magistrant və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**

1. Əliyev, H. Müasir dövrdə müəllim hazırlığı problemləri. Bakı: Təhsil Nəşriyyatı. 2020.
2. Hacıyev, T. Təhsildə innovasiyalar və müəllim fəaliyyətinin yenilənməsi. Bakı: Elm və Təhsil. 2018.
3. Quliyev, R. Kurikulum islahatları və müəllim hazırlığı. Bakı: Adiloğlu. 2017.
4. UNESCO (2021). Teachers of the $21^{st}$ Century: Professional Development and Innovation. Paris: UNESCO Publishing. 2021.
5. OECD. Future of Education and Skills 2030: OECD Learning Compass. Paris: OECD. 2019.

**E.S.Ağazadə**

**Müəllim kadrlarının hazırlanması təhsil islahatlarının strateji istiqamətlərindən biri kimi**

**Xülasə**

XXI əsr müəlliminin funksional rolu təhsil islahatları kontekstində elmi baxımdan araşdırılır. Müasir pedaqoji yanaşmada müəllim bilik ötürən subyekt deyil, təhsilalanların intellektual və yaradıcı potensialını inkişaf etdirən istiqamətləndirici kimi dəyərləndirilir. Pedaqoji kadrların hazırlanması təhsil keyfiyyətinin yüksəldilməsində strateji amil kimi müəyyən edilir. Müəllim fəaliyyətinin əsas komponentləri tədris prosesi, sosial-pedaqoji əməkdaşlıq və davamlı peşəkar inkişaf kontekstində təhlil olunur. İxtisasartırma və əlavə təhsil mexanizmləri müasir təhsil mühitinə uyğunlaşmanı təmin edən mühüm vasitə kimi çıxış edir. Elmi yenilik müəllimin ənənəvi rol modelinin müasir fasilitator yanaşması ilə əvəz olunmasında ifadə olunur

**Э.С. Агазаде**

**Подготовка педагогических кадров как одно из стратегических направлений образовательных реформ**

**Резюме**

Профессиональная роль учителя XXI века анализируется в условиях системных образовательных преобразований. Современный педагог рассматривается как активный субъект образовательного процесса, обеспечивающий развитие аналитического и

творческого мышления обучающихся. Подготовка педагогических кадров определяется как ключевой стратегический ресурс модернизации образования. Особое внимание уделяется направлениям педагогической деятельности, включая учебный процесс, социальное взаимодействие и профессиональное самосовершенствование. Система повышения квалификации выступает важным фактором адаптации учителей к изменяющимся требованиям образовательной среды. Научная новизна исследования заключается в концептуальном переосмыслении роли учителя как фасилитатора обучения.

**E.S. Agazade**

**Teacher training as one of the strategic directions of educational reforms.**
**Summary**

The professional role of the 21st-century teacher is examined in the context of ongoing educational reforms. The teacher is conceptualized as an active facilitator who supports the development of learners' critical and creative thinking skills. Teacher training is identified as a strategic component in improving the overall quality of education. Key dimensions of pedagogical activity include instructional practice, social collaboration, and continuous professional growth. Lifelong learning and in-service training are emphasized as essential mechanisms for meeting contemporary educational demands. The scientific novelty lies in redefining the teacher's role from a traditional instructor to a facilitator of learning.

**Redaksiyaya daxil olub:** 03.03.2026